«Məsihi həyatı və ibadəti. İş dəftəri» üçün mənbələr

7—13 SENTYABR

ALLAHIN KƏLAMINDAKI XƏZİNƏ | ÇIXIŞ 23, 24

«Kütləyə qoşulmayın»

(Çıxış 23:1) Yalan xəbər yaymayın. Pislik məqsədilə şahidlik edərək şər adamla əlbir olmayın.

***w18.08* s. 4—5, abz. 7, 8**
Bütün faktları bilirsiniz?

7 Dost-tanışlarınıza elektron məktub və ya mesajlar göndərməyi xoşlayırsınız? Əgər xoşlayırsınızsa, yəqin yeni xəbərə rast gələndə və ya hansısa hadisəni eşidəndə özünüzü xəbəri istiisti çatdırmaq istəyən müxbir kimi hiss edirsiniz. Lakin həmin xəbəri yaymazdan əvvəl dayanıb düşün: «Yaymaq istədiyim bu məlumatın doğruluğuna əminəm? Əlimdə faktlar var?» Əgər məlumatın doğruluğuna əmin deyilsinizsə, onda bacı-qardaşlar arasında yalan məlumat yaymış olacaqsınız. Ona görə də şübhəniz varsa, «Göndər» yox, «Sil» düyməsini basın.

8 Elektron məktubları və mesajları tez-tələsik göndərməyin digər təhlükəsi də var. Bəzi ölkələrdə fəaliyyətimizə məhdudiyyətlər və ya qadağalar qoyulub. Ola bilsin, həmin ölkələrdə əleyhdarlarımız bizi qorxuya salmaq, aramızdakı etibarı sarsıtmaq üçün qəsdən yalan məlumatlar yaysın. Keçmiş Sovet İttifaqında baş vermiş bir hadisəyə nəzər salaq. KQB kimi tanınan gizli polis şayiə yaymışdı ki, bəzi adlı-sanlı qardaşlar Yehovanın xalqına xəyanət edib. Əfsuslar olsun ki, çoxları bu şayiələrə aldanaraq Yehovanın təşkilatından ayrılmışdı. Bəziləri sonradan qayıtsalar da, digərləri geri dönmədi, onların imanı gəmi kimi qəzaya uğradı (1 Tim. 1:19). Eyni aqibətlə üzləşməmək üçün nə etmək olar? Xoşagəlməz, dəqiqliyinə əmin olmadığınız məlumatı yaymayın. Sadəlövh olmayın, hər eşitdiyinizə inanmayın. Bütün faktlardan agah olduğunuza əmin olun.

(Çıxış 23:2) Kütləyə qoşulub pislik etməyin; şahidlik verəndə çoxluğa uyub ədaləti pozmayın.

***it*-1-E s. 11, abz. 3**
Harun

Qeyd etmək lazımdır ki, Harun etdiyi üç xətanın heç birində əsas günahkar özü olmayıb. Gah yaranmış vəziyyət onu buna vadar edib, gah da təsir altına düşərək düz yoldan sapıb. Xüsusən də birinci xəta zamanı o, «kütləyə qoşulub pislik etməyin» əmrinin kökündə duran prinsipə uyğun davrana bilərdi (Çx 23:2). Bununla belə, onun adı Müqəddəs Kitabın sonrakı hissələrində şərəflə anılır. Allahın Oğlu da yer üzündə yaşayarkən Harun nəslinin kahinliyinin qanuni olduğunu təsdiq etmişdi (Zb 115:10, 12; 118:3; 133:1, 2; 135:19; Mt 5:17—19; 8:4).

(Çıxış 23:3) Kasıbın işinə baxanda üzgörənlik eləməyin.

***it*-1-E s. 343, abz. 5**
Kor olmaq

Məhkəmə işlərində ədaləti tapdalamaq korluğa bənzədilir. Tövratda rüşvətin, hədiyyə almağın, qərəzin pisləndiyi çoxlu öyüd-nəsihətlər yer alır, çünki bu kimi şeylər hakimin gözünü kor edir və tərəfkeşlik etmədən, ədalətli qərar çıxarmasına mane olur. «Rüşvət iti gözü kor edər» (Çx 23:8). «Rüşvət hikmətlinin gözünü kor edər» (Qn 16:19). Hakim nə qədər adil və ağıllı olursaolsun, heç özü də hiss etmədən hədiyyənin təsiri altında qərar verə bilər. Allahın qanununda göstərilir ki, təkcə hədiyyə yox, hisslər də insanı kor edə bilər. Orada deyilir: «Nə kasıbın tərəfini saxlayın, nə də varlıya üstünlük verin» (Lv 19:15). Beləliklə, hakim nə hisslərə qapılaraq, nə də xalq arasında ad-san qazanmaq məqsədilə, sadəcə,

varlı olduğu üçün insanın əleyhinə qərar verməməli idi (Çx 23:2, 3).

Hikmət xəzinəsindən incilər

(Çıxış 23:9) Qəribi sıxışdırmayın. Qərib olmaq nədir yaxşı bilirsiniz, çünki özünüz də Misirdə qərib olmusunuz.

***w16.10* s. 9, abz. 4**
«Qonaqpərvərliyi yaddan çıxarmayın»

4 Yehova sadəcə əmr verə bilərdi ki, israillilər qəriblərə hörmət etsinlər. Amma O, israilliləri həm də şəfqətli olmağa səsləyirdi. **(Çıxış 23:9 ayəsini oxuyun.)** İsraillilər qəribliyin nə demək olduğunu çox yaxşı bilirdilər. Misirlilər dinlərinə və milliyyətlərinə görə həmişə yəhudilərdən uzaq gəzirdilər, hətta onları kölə etməmişdən əvvəl də (Yar. 43:32; 46:34; Çıx. 1:11—14). İsraillilər bu qərib ölkədə çox acı həyat yaşamışdılar. Amma Yehova onlara buyurmuşdu ki, aralarında yaşayan qəriblərə «yerli adam kimi» yanaşsınlar (Lav. 19:33, 34).

(Çıxış 23:20, 21) Qabağınızca mələk göndərirəm ki, sizi yolda qorusun, gətirib hazırladığım yerə çıxarsın. **21** Hərəkətinizə fikir verin və onun sözünə əməl edin. Bu mələyə qarşı çıxmayın, o, asiliyinizi bağışlamayacaq, çünki o, Mənim adımı daşıyır.

***it*-2-E s. 393**
Mikayıl

1. Müqəddəs Kitabda Cəbrayıldan başqa adı çəkilən yeganə mələkdir. Yalnız o, «baş mələk» adlandırılır (Yd 9). Birinci dəfə bu ada «Dənyal» kitabının onuncu fəslində rast gəlinir. Orada Mikayıl «baş əmirlərdən biri» adlanır. O, «Fars əmiri»nin vuruşduğu, mövqecə aşağıda duran bir mələyin köməyinə yetişmişdi. Mikayıl Dənyalın əmiri, onun «xalqının himayəsində duran böyük əmir» adlanır (Dn 10:13, 20, 21; 12:1). Buradan məlum olur ki, israilliləri səhrada aparan mələk Mikayıl idi (Çx 23:20, 21, 23; 32:34; 33:2). Baş mələk Mikayılın Musanın cəsədi barəsində İblislə mübahisə etməsi də bu fikri təsdiqləyir (Yd 9).

Müqəddəs Kitab qiraəti

(Çıxış 23:1—19) Yalan xəbər yaymayın. Pislik məqsədilə şahidlik edərək şər adamla əlbir olmayın. **2** Kütləyə qoşulub pislik etməyin; şahidlik verəndə çoxluğa uyub ədaləti pozmayın. **3** Kasıbın işinə baxanda üzgörənlik eləməyin. **4** Görsəniz ki, düşməninizin öküzü və ya eşşəyi azıb, onu yiyəsinin yanına aparın. **5** Sizə düşmən kəsilən adamın eşşəyini yük altında yıxılıb qalmış görəndə yanından ötüb keçməyin. Yiyəsinə heyvanın üstündən yükü açıb götürməyə kömək edin. **6** Kasıbın işinə baxanda ədaləti pozmayın. **7** Yalandan ittiham etməkdən uzaq durun. Günahsız və düz adamı öldürməyin, Mən belə iş görənə haqq qazandırmaram. **8** Rüşvət almayın, çünki rüşvət iti gözü kor edər, dürüst adamın fikrini dəyişdirər. **9** Qəribi sıxışdırmayın. Qərib olmaq nədir yaxşı bilirsiniz, çünki özünüz də Misirdə qərib olmusunuz. **10** Torpağınızı altı il becərib məhsulunu yığın. **11** Yeddinci il isə becərməyin, dincə qoyun. Orada nə bitsə, qoy kasıb-kusub yesin; onlardan qalan isə qurda-quşa yem olsun. Bu, üzüm bağınıza da, zeytun bağınıza da aiddir. **12** Nə işiniz varsa, altı gün ərzində görün, yeddinci gün isə heç bir iş görməyin. Qoyun öküzünüz, eşşəyiniz dincəlsin, qul-qarabaşınız və yurdunuzdakı yadelli istirahət etsin. **13** Diqqətli olun ki, dediyim şeylərin hamısına əməl edəsiniz. Başqa allahların adını dilinizə gətirməyin, ağzınızdan onların adı çıxmasın. **14** İldə üç dəfə Mənim şərəfimə bayram keçirməlisiniz. **15** Mayasız çörək bayramını qeyd edin. Sizə tapşırdığım kimi, əviv ayında, təyin etdiyim vaxt yeddi gün mayasız çörək yeməlisiniz, çünki Misirdən məhz həmin vaxt çıxmısınız. Heç kim hüzuruma əli-

boş gəlməsin. **16** Həmçinin Biçin bayramını, zəhmətinizin nübarının, becərdiyiniz torpağın ilk məhsulunun biçinini qeyd edin. Eləcə də ilin sonunda, əkib-becərdiyiniz məhsulu yığanda Məhsul yığımı bayramını qeyd edin. **17** İldə üç dəfə bütün kişiləriniz Rəbbiniz Yehovanın hüzuruna gəlməlidir. **18** Mənə gətirdiyiniz qurbanın qanının yanında mayalı heç nə olmamalıdır. Mənə həsr olunan bayramlarda gətirilən qurbanların piyindən səhərə qalmamalıdır. **19** Torpağınızdan götürdüyünüz ilk məhsulun ən yaxşısını Allahınız Yehovanın evinə gətirməlisiniz. Oğlağı anasının südündə bişirməyin.

14—20 SENTYABR

ALLAHIN KƏLAMINDAKI XƏZİNƏ | ÇIXIŞ 25, 26

«Çadırdakı ən vacib əşya»

(Çıxış 25:9) Çadırı və onun bütün avadanlığını göstərdiyim nümunəyə əsasən düzəldin.

***it*-1-E s. 165**
Əhd sandığı

Layihəsi. Yehova Musaya müqəddəs çadırı düzəltməyi buyuranda ona ilk olaraq sandığın layihəsini verdi. Çünki sandıq çadırda, eləcə də bütün İsrail düşərgəsində ən vacib əşya idi. Sandığın uzunluğu iki qulac yarım, eni qulac yarım, hündürlüyü qulac yarım idi (təx. 111×67×67 sm.). Akasiya ağacından düzəldilmişdi. Ona həm içəridən, həm də çöldən xalis qızıl çəkilmişdi. Kənarlarına qızıldan naxışlı haşiyə vurulmuşdu. Sandığın ikinci hissəsi, yəni qapağı bütünlüklə qızıldan düzəldilmişdi, taxtadan düzəldilib üstünə qızıl çəkilməmişdi. Qapağın eni və uzunu sandığınkına bərabər idi. Qapağın üstünə döymə qızıldan düzəldilmiş iki kərrub qoyulmuşdu, hərəsi qapağın bir qırağına. Kərrublar qarşı-qarşıya, başları aşağı idi. Qanadları yuxarıya açılıb qapağın üstünü örtmüşdü (Çx 25:10, 11, 17—22; 37:6—9). Sandığın qapağı həm də kəffarə qapağı adlanırdı (İb 9:5).

(Çıxış 25:21) Qapağı sandığın ağzına qoy. Sənə verəcəyim Şəhadət lövhələrini isə sandığa qoy.

***it*-1-E s. 166, abz. 2**
Əhd sandığı

Sandıqda müqəddəs Şəhadət lövhələri, yəni üstündə On əmrin yazıldığı iki lövhə saxlanılırdı (Çx 25:16). İçində manna olan qızıl qabı və Harunun tumurcuqlamış əsasını da sandığa qoymuşdular. Amma Süleymanın məbədi tikilməzdən bir qədər əvvəl onları oradan götürmüşdülər (İb 9:4; Çx 16:32—34; Sy 17:10; 1Pd 8:9; 2Sm 5:10). Musa vəfat etməzdən əvvəl «Qanun kitabını» lavili kahinlərə verib tapşırdı ki, onlara qarşı şahidlik etsin deyə, kitabı «Yehovanın Şəhadət sandığının» içinə yox, yanına qoysunlar (Qn 31:24—26).

(Çıxış 25:22) Mən qapağın üstündə sənə görünüb oradan səninlə danışacağam. İsraillilərə çatdıracağın bütün fərmanları sənə Şəhadət sandığının üstündəki kərrubların arasından bildirəcəyəm.

***it*-1-E s. 166, abz. 3**
Əhd sandığı

Allahın hüzuru ilə əlaqəli idi. Sandıq mövcud olduğu bütün müddət ərzində Allahın hüzuru ilə əlaqəli olub. Yehova vəd etmişdi: «Mən qapağın üstündə sənə görünüb oradan səninlə danışacağam. İsraillilərə çatdıracağın bütün fərmanları sənə Şəhadət sandığının üstündəki kərrubların arasından bildirəcəyəm». «Mən qapağın üstündəki buludda zühur edəcəyəm» (Çx 25:22; Lv 16:2). İşmuil Yehovanın kərrublar üzərində taxt qurduğunu yazmışdı (1İş 4:4), deməli, kərrublar Yehovanın arabasını təmsil edirdilər (1Sm 28:18). Beləliklə, «hər dəfə Musa Allahla danışmaq üçün Hüzur çadırına girəndə Şəhadət sandığının qapağının üstündən ona xitab edən səs eşidirdi. Allah iki kərrubun arasından onunla

danışırdı» (Sy 7:89). Sonralar Yuşə və baş kahin Fənhas da sandığın önündə Yehovaya müraciət edirdilər (Yş 7:6—10; Hk 20:27, 28). Ancaq yalnız baş kahin ildə bir dəfə Ən müqəddəs yerə girib sandığı görürdü. Lakin o, Yehova ilə danışmaq üçün yox, Kəffarə günündə ayinləri icra etmək üçün ora daxil olurdu (Lv 16:2, 3, 13, 15, 17; İb 9:7).

Hikmət xəzinəsindən incilər

(Çıxış 25:20) Kərrubların qanadları yuxarıya tərəf açılıb qapağın üstünü örtməlidir. Onlar qarşı-qarşıya qoyulmalı, üzləri isə qapağa baxmalıdır.

***it*-1-E s. 432, abz. 1**
Kərrub

Səhrada qurulan çadırın əşyaları arasında kərrub fiqurları da var idi. Sandığın qapağının hər iki qırağında döymə qızıldan düzəldilmiş bir kərrub qoyulmuşdu. Onlar qarşı-qarşıya qoyulmuşdu, səcdə formasında qapağa tərəf əyilmişdilər. Hər birinin iki qanadı var idi, qanadları yuxarıya tərəf açılıb qapağın üstünü örtürdü, sanki qapağı qoruyurdu (Çx 25:10—21; 37:7—9). Həmçinin çadırın içəri örtüklərinin və Müqəddəs yerlə Ən müqəddəs yer arasındakı pərdənin üzərinə kərrub təsvirləri işlənmişdi (Çx 26:1, 31; 36:8, 35).

(Çıxış 25:30) Mənim önümdən, masanın üstündən hüzur çörəyi heç vaxt əskik olmamalıdır.

***it*-2-E s. 936**
Hüzur çörəyi

Çadırda və məbəddə Müqəddəs yerdəki masanın üstünə qoyulan və hər şənbə təzələri ilə əvəz olunan on iki çörək (Çx 35:13; 39:36; 1Pd 7:48; 2Sm 13:11; Nə 10:32, 33). Hüzur çörəyinə ibrani dilində hərfən «üz çörəyi» deyirdilər. «Üz» kimi tərcümə olunan ibrani sözü bəzən hüzur mənasında da işlənir. Beləliklə, hüzur çörəyi təqdimə olaraq heç vaxt Yehovanın önündən əskik olmurdu (Çx 25:30). Hüzur çörəyi həm də «təqdim çörəkləri» adlanırdı (Mr 2:26; İb 9:2).

Müqəddəs Kitab qiraəti

(Çıxış 25:23—40) Həmçinin akasiya ağacından iki qulac uzunluğunda, yarım qulac enində, qulac yarım hündürlüyündə bir masa düzəldin. **24** Üstünə xalis qızıl çəkin. Qıraqlarına qızıldan naxışlı haşiyə vurun. **25** Masaya dörd barmaq enində çərçivə vurun. Çərçivənin qırağına da naxışlı haşiyə düzəldin. **26** Masa üçün qızıldan dörd halqa düzəldin və masanın dörd küncünə, ayaqların bərkidildiyi yerə vurun. **27** Halqalar çərçivəyə yaxın olmalıdır. Masanı daşımaq lazım gələndə şüvülləri halqalardan keçirib masanı götürərsiniz. **28** Şüvülləri akasiya ağacından düzəldin, üstünə də qızıl çəkin. Masanı bu şüvüllərlə daşıyacaqlar. **29** Masa üçün nimçələr, camlar, eləcə də şərab təqdiməsini tökmək üçün dolçalar və kasalar düzəldin. Onlar xalis qızıldan olmalıdır. **30** Mənim önümdən, masanın üstündən hüzur çörəyi heç vaxt əskik olmamalıdır. **31** Xalis döymə qızıldan çıraqdan düzəldin. Onun altlığı, gövdəsi, qolları, tumurcuqları, qönçələri və gülləri bir bütöv olmalıdır. **32** Çıraqdanın gövdəsindən altı qol ayrılmalıdır — üçü bir tərəfdən, üçü digər tərəfdən. **33** Hər iki tərəfdəki qollarda tumurcuq və qönçələrlə növbələşən, badam çiçəyinə bənzər üç gül olmalıdır. Çıraqdanın gövdəsindən ayrılan altı qol bu cür olmalıdır. **34** Çıraqdanın gövdəsində də tumurcuq və qönçələrlə növbələşən, badam çiçəyinə bənzər dörd gül olmalıdır. **35** Çıraqdanın gövdəsindən ayrılan altı qolun hər cütünün altında bir tumurcuq olmalıdır. **36** Tumurcuqlar, qollar, ümumiyyətlə, çıraqdan bütöv bir qızıl parçasından, xalis, döymə qızıldan düzəldilməlidir. **37** Çıraqdan üçün yeddi çıraq düzəldin. Çıraqlar yananda qabaq tərəfi işıqlandırmalıdır. **38** Maşalar və xəkəndazlar xalis qızıldan olmalıdır. **39** Çıraqdan və onun bütün avadanlığı bir talant xalis qızıldan düzəldilməlidir. **40** Diqqətli ol ki, hər şey sənə dağda göstərilən nümunəyə uyğun düzəldilsin.

21—27 SENTYABR

ALLAHIN KƏLAMINDAKI XƏZİNƏ | ÇIXIŞ 27, 28

«Kahinlərin geyimindən nə öyrənirik?»

(Çıxış 28:30) Urim və Tummim hökm sinəbəndində saxlanılmalıdır. Harun Yehovanın önünə çıxanda onlar Harunun ürəyinin üstündə olmalıdır və o, İsrail oğullarına hökm etmək üçün olan bu əşyaları Yehovanın önündə həmişə ürəyinin üstünə qoyub daşımalıdır.

***it*-2-E s. 1143**
Urim və Tummim

Müqəddəs Kitabın bir sıra şərhçilərinin fikrincə, Urim və Tummim püşk idi. Ceyms Moffatın tərcüməsində Çıxış 28:30 ayəsində onlar «müqəddəs püşk» adlanırlar. Bəziləri belə ehtimal edir ki, onlar üç püşkdən ibarət idi, birinin üstündə «bəli» sözü, birinin üstündə «xeyr» sözü həkk edilmişdi, birinin üstü isə boş idi. Suala cavab vermək üçün onlardan birini sinəbənddən çıxarırdılar, yazısız püşk çıxarılanda bu o demək idi ki, Allah suala cavab vermir. Digərlərinin fikrincə, bu, iki yastı daş idi, onların bir üzü ağ, o biri üzü qara idi. Onları atanda ikisinin də ağ tərəfi düşərdisə, cavab «bəli» idi, ikisinin qara tərəfi düşərdisə, cavab «xeyr» idi, birinin qara, o birinin ağ tərəfi düşərdisə, suala cavab yox idi. Bir dəfə Talut kahin vasitəsilə Allahdan filiştlilərə hücum edib-etməməyi soruşanda cavab almadı. Başa düşdü ki, xalqın arasından kimsə günah edib. Ona görə də Allaha yalvardı: «Ey İsrailin Allahı, Tummim vasitəsilə bizə cavab ver!» Oradakıların arasından Talutla Yonatan seçildi. Sonra isə onların ikisinin arasında püşk atıldı. Bu əhvalatda Talutun «Tummim vasitəsilə bizə cavab ver!» deməsindən elə təəssürat yaranır ki, bu, püşk deyildi. Amma bu sözlər onlar arasında hansısa əlaqənin olduğuna da işarə edə bilər (1İş 14:36—42).

(Çıxış 28:36) Xalis qızıldan parlaq lövhəcik düzəldib üstünə möhür oyması kimi «Müqəddəslik Yehovaya məxsusdur» sözlərini həkk edin.

***it*-1-E s. 849, abz. 3**
Alın

İsraildə baş kahin. İsraildə baş kahinin alnına, əmmaməsinin qabağına qızıl lövhəcik, müqəddəs lövhəcik bərkidilmişdi. Lövhəciyə möhür oyması kimi, «Müqəddəslik Yehovaya məxsusdur» sözləri həkk edilmişdi (Çx 28:36—38; 39:30). Yehovaya ibadətdə İsrailin əsas təmsilçisi olduğu üçün baş kahin xidmətini təmiz icra etməli idi. Həmçinin bu sözlər bütün israillilərə Yehovaya ibadətdə həmişə müqəddəsliyi qorumağın vacibliyini xatırladırdı. Bundan başqa, bu, böyük baş kahin olan İsa Məsihi və onun kahinlik xidmətinə Yehova tərəfindən təyin olunmasını çox gözəl təsvir edirdi. İsa Məsih isə kahinlik xidməti ilə Allahın müqəddəsliyinin keşiyində durur (İb 7:26).

(Çıxış 28:42, 43) Eyib yerlərini örtmək üçün onlara beldən dizə qədər olan tuman tikin. **43** Harun və oğulları Hüzur çadırına girməli və ya müqəddəs məkanda xidmət edərkən qurbangaha yaxınlaşmalı olanda tumanı geyinsinlər ki, günah qazanıb ölməsinlər. Qoy bu, həmişəlik Harunla övladları üçün qanun olsun.

***w08* 15/8 s. 15—16, abz. 17**
Ləyaqətli davranışınla Yehovaya şərəf gətir

17 Ləyaqətli davranmaq xüsusilə də Yehovaya ibadət edərkən vacibdir. Vaiz 5:1 ayəsində deyilir: «Allahın evinə getdiyin zaman hərəkətlərinə diqqət et». Həm Musaya, həm də Yeşuaya müqəddəs yerdə dayanarkən çarıqlarını çıxarmaq əmr olunmuşdu (Çıx. 3:5; Yeşua 5:15). Onlar bunu hörmət və ehtiram əlaməti olaraq etməli idilər. İsrail kahinləri 'lüt bədənlərini örtmək' üçün kətan alt paltarı geyinməli idilər (Çıx. 28:42, 43). Bunun sayəsində, onlar qurbangahda xidmət edərkən ayıb yerləri görünmürdü. Kahinin ailəsinin hər bir üzvü Allahın ləyaqətlə bağlı normalarına riayət etməli idi.

Hikmət xəzinəsindən incilər

(Çıxış 28:15—21) Naxışçıya hökm sinəbəndi düzəltdir. O da döşlük kimi qızıl sapdan, göy və al-qırmızı iplikdən, bənövşəyi yundan və zərif kətan iplikdən olmalıdır. **16** İki qatlananda dördbucaq şəklini almalı, eni və uzunu bir qarış olmalıdır. **17** Üstünə dörd cərgə daş düzülməlidir: birinci cərgədə yaqut, topaz, zümrüd, **18** ikinci cərgədə firuzə, göy yaqut, yəşəm, **19** üçüncü cərgədə ləşəm, əqiq, ametist, **20** dördüncü cərgədə xrizolit, damarlı əqiq, nefrit. Onlar qızıl sağanaqlara salınmalıdır. **21** Daşlar İsrailin oğullarının adlarına müvafiq olaraq, on iki ədəd olmalıdır. Hər bir daşın üstünə möhür oyması kimi bir ad nəqş olunmalıdır, hər daşa on iki qəbilədən birinin adı.

***w12*-E 1/8 s. 26, abz. 1—3**
Bilirsiniz?

İsraildə baş kahinin taxdığı sinəbəndin üstündəki qiymətli daşlar, güman ki, haradan idi?
Misirdən çıxan israillilər səhraya gələndə Allah onlara bu sinəbəndi düzəltməyi əmr etdi (Çıxış 28:15—21). Sinəbəndin üstünə yaqut, topaz, zümrüd, firuzə, göy yaqut, yəşəm, ləşəm, əqiq, ametist, xrizolit, damarlı əqiq, nefrit daşları düzülmüşdü. Doğrudanmı, israillilərdə bu daşlar var idi?

Qədim dövrdə insanlar qiymətli daşları dəyərləndirir və onların ticarəti ilə məşğul olurdular. Məsələn, misirlilər qiymətli daşları müasir İran, Əfqanıstan və hətta, ola bilsin, Hindistandan gətirirdilər. Misir mədənlərində bir sıra qiymətli daşlar çıxarırdılar. Misir hökmdarları öz tabeliklərində olan ərazilərdəki mineral suxurların mütləq sahibi idi. Əyyub müasirlərinin xəzinə tapmaq üçün mədənlər qazdığını demişdi. Əyyub yerdən çıxarılan başqa şeylərlə yanaşı göy yaqutun və topazın adını xüsusi qeyd etmişdi (Əyyub 28:1—11, 19).

«Çıxış» kitabında deyilir ki, israillilər Misirdən çıxanda misirlilərin varını-yoxunu alıb aparmışdılar (Çıxış 12:35, 36). Deməli, ola bilsin, israillilər baş kahinin sinəbəndinə vurulan daşları Misirdən gətirmişdilər.

(Çıxış 28:38) Lövhəcik Harunun alnının üstündə olmalıdır. Allaha bəxşiş kimi təqdim edilən müqəddəs şeylərlə bağlı təqsirlərin məsuliyyətini Harun daşıyacaq. Lövhəcik həmişə Harunun alnının üstündə olmalıdır ki, israillilər Yehovanın razılığını qazansınlar.

***it*-1-E s. 1130, abz. 2**
Müqəddəslik

Heyvanlar və məhsullar. İnəyin, qoyunun və keçinin ilk doğulan erkək balalarını Yehova müqəddəs sayırdı, onları fidyə verib almaq olmazdı. Onlar qurban gətirilməli idi, bir hissəsi isə kahinə verilirdi (Sy 18:17—19). Məhsulun nübarı və ondabirlər, o cümlədən müqəddəs məkandakı xidmət üçün ayrılmış bütün qurbanlar və bəxşişlər kimi müqəddəs idi (Çx 28:38). Yehova üçün ayrılan hər şey müqəddəs idi, onlarla necəgəldi rəftar etmək, adi şeylər üçün işlətmək olmazdı. Buna ondabirlərlə bağlı qanunu nümunə çəkmək olar. Əgər kimsə hansısa məhsulun, məsələn, buğdanın ondabirini ayırmışdısa, sonra o, yaxud ailəsindən kimsə bilmədən o buğdadan götürüb bişirərdisə, həmin adam Allahın müqəddəs şeylərlə bağlı qanununu pozmuş olardı. Qanuna əsasən, o, işlədiyi günahın qarşılığını, üstəlik, onun beşdə birini müqəddəs məkana ödəməli idi, həmçinin sağlam qoç qurban gətirməli idi. Beləliklə, Yehovaya məxsus olan müqəddəs şeylərə ehtiramla yanaşmaq lazım idi (Lv 5:14—16).

Müqəddəs Kitab qiraəti

(Çıxış 27:1—21) Akasiya ağacından eni və uzunu 5 qulac, hündürlüyü 3 qulac olan qurbangah düzəldin. Qurbangah dördbucaq olmalıdır. **2** Onun hər küncündə buynuz düzəldin. Buynuzlar qurbangahla bir bütöv olmalıdır. Qurbangahın üstünə mis çəkin. **3** Küləklər, ləyənlər, yabalar, xəkəndazlar, həmçinin külü yığmaq üçün qablar düzəldin. Bütün ləvazimatlar misdən olmalıdır. **4** Qurbangah

üçün mis şəbəkə düzəldin. Şəbəkənin hər dörd küncünə bir mis halqa bərkidin. 5 Şəbəkəni qurbangahın içinə, çərçivədən aşağıda yerləşdirin. O, qurbangahın yarısına qədər çatmalıdır. 6 Qurbangah üçün akasiya ağacından şüvüllər düzəldin və onların üstünə mis çəkin. 7 Şüvüllər halqalardan keçiriləcək, beləliklə, qurbangahı daşıyanda şüvüllər onun iki tərəfinə düşəcək. 8 Qurbangahı taxtadan, altsız sandıq şəklində düzəldin. O, dağda sənə göstərilən nümunəyə uyğun düzəldilməlidir. 9 Müqəddəs çadırın həyəti olmalıdır. Həyətin cənub tərəfinə, yəni cənuba baxan tərəfinə zərif kətandan parça çəpər çəkin. O, 100 qulac uzunluğunda olmalıdır. 10 Onun üçün 20 dirək və misdən 20 oyuqlu altlıq hazırlanmalıdır. Direklərin qarmaqları və halqaları gümüşdən olmalıdır. 11 Şimal tərəfə çəkilən parça çəpər də 100 qulac uzunluğunda olmalı, 20 dirəyi, misdən 20 oyuqlu altlığı, direklər üçün isə gümüş qarmaqları və halqaları olmalıdır. 12 Qərb tərəfdən həyətin eninə 50 qulac uzunluğunda parça çəpər çəkin. Onun üçün 10 dirək və 10 oyuqlu altlıq düzəldilməlidir. 13 Şərqə, gündoğana baxan tərəfdə həyətin eni 50 qulac olmalıdır. 14 Girişin sağ tərəfinə 15 qulac uzunluğunda parça çəpər çəkilməli, 3 dirəyi və 3 oyuqlu altlığı olmalıdır. 15 Girişin sol tərəfinə də 15 qulac uzunluğunda parça çəpər çəkilməli, 3 dirəyi və 3 oyuqlu altlığı olmalıdır. 16 Həyətin girişinə 20 qulac uzunluğunda pərdə çəkin. Pərdə göy və al-qırmızı iplikdən, bənövşəyi yundan, zərif kətan iplikdən toxunmalıdır. Onun üçün 4 dirək və 4 oyuqlu altlıq hazırlanmalıdır. 17 Həyətin bütün direklərinin halqaları və qarmaqları gümüşdən, oyuqlu altlıqları isə misdən olmalıdır. 18 Həyətin uzunluğu 100 qulac, eni 50 qulac, zərif kətandan olan parça çəpərin isə eni 5 qulac olmalıdır. Həyət üçün misdən oyuqlu altlıqlar düzəldilməlidir. 19 Müqəddəs çadırda işlədilən bütün əşyalar, çadırın və həyətin bütün mıxları misdən olmalıdır. 20 İsrailliləra əmr et, çıraqların sərasər yanması üçün zeytundan çəkilmiş xalis yağ gətirsinlər. 21 Harun və oğulları Hüzur çadırında, Şəhadət sandığının qarşısındakı pərdənin bayır tərəfindəki çıraqları axşamdan səhərə qədər Yehovanın önündə yanar saxlayacaqlar. İsrailliləin bütün nəsilləri həmişə qüvvədə olacaq bu qanuna əməl etməlidirlər.

28 SENTYABR — 4 OKTYABR

ALLAHIN KƏLAMINDAKI XƏZİNƏ | ÇIXIŞ 29, 30

«Yehovanın yolunda ianə»

(Çıxış 30:11, 12) Sonra Yehova Musaya dedi: 12 «İsrail oğullarını siyahıya alıb sayanda hər kəs canının əvəzində Yehovaya fidyə versin. Qoy belə etsinlər ki, siyahıya alınan vaxt başlarına bəla gəlməsin.

***it*-2-E s. 764—765**
Siyahıyaalınma

Sinada. İsraillilər Misirdən çıxmalarının ikinci ilinin ikinci ayında Sinada düşərgə salarkən Yehovanın əmrilə ilk siyahıyaalınma keçirildi. Bu işdə Musaya kömək etmək üçün hər qəbilədən bir nəfər seçildi. Onlar öz qəbilələrində siyahıyaalmaya nəzarət edəcəkdilər. Siyahıyaalma zamanı yaşı iyirmi və iyirmidən yuxarı olan, orduda xidmət etməyə yararlı kişilər qeydə alındılar. Bundan başqa, Qanun siyahıya alınan kəslərin üzərinə hüzur çadırında edilən ibadət üçün yarım şekel (1,10$) can vergisi qoydu (Çx 30:11—16; Sy 1:1—16, 18, 19). Siyahıya alınanların ümumi sayı, ölkədə irsi olmayan lavililəri çıxmaqla, 603 550 nəfər oldu. Lavililər hüzur çadırı üçün vergi vermirdilər, onlar orduda da xidmət etmirdilər (Sy 1:44—47; 2:32, 33; 18:20, 24).

(Çıxış 30:13—15) Siyahıya alınan hər kəs müqəddəs məkan şekeli ilə yarım şekel verməlidir. Şekel iyirmi geraya bərabərdir. Bu yarım şekel Yehovaya verilməlidir. 14 İyirmi və iyirmidən

yuxarı yaşda olub siyahıya alınan hər kəs Yehovanın dediyi payı ianə etsin. **15** Canı üçün kəffarə olaraq Yehovaya bu ianəni verəndə nə varlı yarım şekeldən çox verməlidir, nə də kasıb ondan az verməlidir.

***it*-1-E s. 502**
İanə

Qanuna əsasən bəzi ianələr icbari idi. Musa israilliləri siyahıya alanda yaşı iyirmi və iyirmidən yuxarı olan hər kişi canı üçün fidyə olaraq müqəddəs məkan şekeli ilə yarım şekel (ehtimal ki, 1,10$) verməli idi. Yehovanın dediyi bu pay həm onların canı üçün kəffarə idi, həm də Hüzur çadırında edilən ibadətə sərf ediləcəkdi (Çx 30:11—16). Yəhudi tarixçisi İosif Flavinin yazdığına əsasən, bu "müqəddəs vergi" sonralar hər il ödənilirdi (2Sm 24:6—10; Mt 17:24; «Yəhudi müharibəsi», VII, 218).

(Çıxış 30:16) Kəffarə haqqı olan gümüş pulu israillilərdən al və Hüzur çadırında edilən ibadət üçün ver. Bu, israilliləri Yehovaya xatırladan nişan və canları üçün kəffarə olacaq».

***w11*-E 1/11 s. 12, abz. 1, 2**
Bilirsiniz?

Yerusəlimdə Yehovanın məbədində icra olunan xidmətlər necə maliyyələşirdi?
Məbəddə icra olunan müxtəlif xidmətlər vergilər, əsas etibarilə icbari olan ondabir vergisi sayəsində maliyyələşirdi. Amma başqa vergi növləri də mövcud idi. Məsələn, çadır qurulan vaxt Yehova Musaya buyurmuşdu ki, siyahıya alınan hər israilli yarım şekel ianə etsin (Çıxış 30:12—16).

Görünür, sonralar bu adətə çevrilmişdi. Hər yəhudi bu məbləği illik məbəd vergisi kimi ianə edirdi. İsa Məsih Butrusa balığın ağzından tapdığı pulla vergini ödəməyi tapşıranda bu vergidən danışırdı (Mətta 17:24—27).

Hikmət xəzinəsindən incilər

(Çıxış 29:10) Buğanı Hüzur çadırının qarşısına gətir, qoy Harunla oğulları əllərini buğanın başına qoysunlar.

***it*-1-E s. 1029, abz. 4**
Əl

Əl qoymaq. Əlləri insanın və ya əşyanın üstünə müxtəlif məqsədlərlə qoyurdular. Bu hərəkətin əsas məğzi insanın, yaxud əşyanın müəyyən bir iş üçün ayrıldığını göstərmək idi. Kahinliyin təsis olunması mərasimində Harunla oğulları əllərini qurbanlıq buğanın və iki qoçun başına qoydular. Bununla təsdiqlədilər ki, həmin heyvanlar onların Yehova Allahın kahinləri olması üçün qurban gətirilir (Çx 29:10, 15, 19; Lv 8:14, 18, 22). Musa Allahın əmrilə Yuşəni xələfi təyin edəndə əllərini onun başına qoymuşdu. Bundan sonra Yuşə dərin hikmətə sahib olmuş və beləliklə də İsrailə düzgün şəkildə rəhbərlik etməyə qabil olmuşdu (Qn 34:9). Həmçinin kiminsə nemətlərə sahib olacağını göstərmək üçün də onun başına əl qoyulurdu (Yr 48:14; Mr 10:16). İsa Məsih şəfa verdiyi insanlardan bəzilərinə toxunur, yaxud əllərini onların üzərinə qoyurdu (Mt 8:3; Mr 6:5; Lk 13:13). Bəzi hallarda həvarilərin əllərini qoyması vasitəsilə adamlar müqəddəs ruh alırdılar (Hv 8:14—20; 19:6).

(Çıxış 30:31—33) İsraillilərə belə de: "Bu yağ nəsildən-nəslə Mənim üçün müqəddəs yağ olacaq. **32** Heç kim ondan bədəninə çəkə bilməz. Həm də bu tərkibdə heç nə düzəltməyin. O, müqəddəsdir. Onu həmişə müqəddəs tutun. **33** Kim buna bənzər yağ düzəltsə və ya kənar adama bu yağdan çəksə, xalqın arasından yox ediləcək"».

***it*-1-E s. 114, abz. 1**
Məsh olunmuş, məsh etmək

Yehova Musaya verdiyi Qanunda məsh yağının hazırlanma qaydasını da söyləmişdi. Bu yağ xüsusi ərzaqların, mürr, ətirli darçın, ətirli kəcəvər, darçın və zeytun yağının qatışığından düzəlirdi (Çx 30:22—25). Bu qatışığı düzəltməyin, kənar məqsəd üçün istifadə etməyin cəzası ölüm idi (Çx 30:31—33). Bu, müqəddəs yağla məsh edilərək təsdiqlənən təyinatın müqəddəsliyini və vacibliyini göstərirdi.

Müqəddəs Kitab qiraəti

(Çıxış 29:31—46) Harunla oğulları üçün kahinlik qurbanı kimi təqdim olunan qoçun ətini müqəddəs yerdə suda bişir. **32** Harun və oğulları əti səbətdə olan çörəklə Hüzur çadırının girişində yeməlidirlər. **33** Onlar pak edilib kahinliyə təyin olunmaları üçün kəffarə olaraq gətirilən təqdimələri yeməlidirlər. Lakin kənar adam onlardan yeyə bilməz, çünki onlar müqəddəsdir. **34** Kahinlik qurbanının ətindən və ya çörəkdən səhərə qalanı yandırın. Onu yemək olmaz, çünki müqəddəsdir. **35** Harun və oğulları ilə bağlı nə əmr etmişəmsə, hamısını yerinə yetir. Onların kahinliyə təyin edilməsi yeddi gün çəkəcək. **36** Hər gün kəffarə üçün günah qurbanı olaraq bir buğa təqdim et. Kəffarə gətirərək qurbangahı pak et; onu müqəddəs etmək üçün məsh elə. **37** Qurbangah üçün kəffarə gətirmək yeddi gün çəkəcək. Onu müqəddəs et. Beləliklə, qurbangah son dərəcə müqəddəs olacaq. Ona toxunan adam müqəddəs olmalıdır. **38** Qurbangahda bunları təqdim et: mütəmadi olaraq, hər gün iki erkək toğlu. **39** Toğlunun birini səhər, digərini isə qaş qaralanda təqdim et. **40** Efanın onda biri qədər narın una hinin dörddə biri qədər yağ qat. Bunu və şərab təqdiməsi olaraq hinin dörddə biri qədər şərabı birinci toğlunun yanında təqdim et. **41** Qaş qaralanda gətirdiyin ikinci toğlunun yanında səhərki kimi taxıl və şərab təqdiməsi gətir. Onu Yehovaya xoş ətir kimi, odda yandırılan təqdimə kimi təqdim et. **42** Bu yandırma qurbanını nəsillər boyunca Hüzur çadırının girişində, Yehovanın önündə müntəzəm gətirməlisiniz. Orada Mən sizə görünəcəyəm və sənlə danışacağam. **43** Mən orada israillilərə görünəcəyəm və calalımdan həmin yer müqəddəs olacaq. **44** Hüzur çadırını və qurbangahı müqəddəs edəcəyəm. Həmçinin Harunu və oğullarını da müqəddəs edəcəyəm ki, Mənə kahin kimi xidmət etsinlər. **45** Mən İsrail xalqının arasında yaşayacağam, onların Allahı olacağam. Onlar biləcəklər ki, Mən onların Allahı Yehovayam. **46** Onları Misirdən çıxarmışam ki, aralarında yaşayım. Mən onların Allahı Yehovayam.

© 2020 Watch Tower Bible and Tract Society of Pennsylvania